# FS Pool Master 1070
# Toz Xlor 70%

## Təyinatı:

FS Pool Master 1070 hovuzun daimi və şok dezinfeksiyası üçün universal preparatdır. Hovuzda yaranan bakteriyaları, yosunları, göbələkləri məhv edir. Preparat suyun həddindən artıq sabitləşməsinə səbəb olmur. Bağlı hovuzlar üçün idealdır, açıq havada istifadə edilə bilər.

## Üstünlüklər:

- Hovuz suyunun effektiv dezinfeksiyası
- Suyun həddindən artıq stabilləşməsinə səbəb olmur
- Suyun rənginin dəyişilməsinin qarşısını alır
- Daimi və şok istifadəsi üçün universal preparat
- Kəskin qoxusuz
- Tez həll olunur

## İstifadəyə dair göstərişlər:

Preparat ancaq məhlul şəklində istifadə olunur. Məhlulu hazırlamaq üçün qranullar suya əlavə olunur (su qranullara əlavə olunmur). İstifadə zamanı aşağıdakı sıralamaya nəzarət yetirin:

- Dozaja uyğun məhlul hazırlayın
- Qranulların tam həll olunduğundan əmin olun
- Məhlulu hovuzun perimetri boyu bərabər paylayın
- Suyun dövriyyəsi üçün filtri işə salın.
- Hovuzun istifadəsi üçün fasilə lazımdır: Şok dezinfeksiyadan sonra azı 8 saat, daimi dezinfeksiyadan sonra azı 4 saat.
- Tətbiqdən sonra suyun parametrləri: pH 7,0-7,4 , aktiv xlor səviyyəsi 0,3-0,6 mq (2 mq-dan artıq olmamalıdır).
- Daimi xlorlanma hər 2-3 gündən aparılmalıdır.

## Dozaj:

Şok dezinfeksiya üçün 10 $m^3$ suya 70 q preparat, daimi dezinfeksiya üçün 10 $m^3$ suya 20-30 q preparat əlavə olunur.

## Saxlama və təhlükəsizlik tədbirləri:

Sıx qapalı qabda, 0-25 °C temperaturda quru yerdə saxlanılmalıdır. Preparat zəhərlidir: istifadə zamanı qoruyucu əlcəklərdən istifadə edin. Göz və ya dəri ilə təmasda olduqda bol su ilə yuyun, lazım olduqda həkimə müraciət edin. Preparatı turşulardan qoruyun.

## Məhsulun istifadəsi və saxlanması zamanı riayət edilməli olan qaydalar:

İstifadə etməzdən əvvəl etiket və təhlükəsizlik pasportunu oxuyun.
Həkim məsləhəti tələb olunarsa, etiketi və ya təhlükəsizlik pasportunu göstərin.
Başqa bir preparat və ya maddə ilə qarışdırmayın.
Preparatdan istifadə edərkən yemək yeməyin, içki içməyin və siqaret çəkməyin.
Toz/tüstü/qaz/duman/buxar/aerozollarla nəfəs almayın. Göz, dəri və ya paltarla təmasdan çəkinin.
Qoruyucu əlcəklər/qoruyucu geyimlər/göz/üz qoruyucularından istifadə edin.
Çirklənmiş paltarları çıxarın və yenidən istifadə etməzdən əvvəl yuyun.
Yalnız orijinal qablaşdırmada və yaxşı havalandırılan yerdə saxlayın. Qabı möhkəm bağlayın.
Qabı güclü təsirlərdən qoruyun. Qabı dik saxlayın.
İşçilər risk qiymətləndirməsində göstərilən nəzarət və qoruma tədbirlərini başa düşməli və onlara əməl etməlidirlər. İşçilər öyrədilməli, təlimatlandırılmalı, izlənilməli və adekvat, dəqiq məlumatlarla təmin edilməlidir.
Tərkibini/qablaşmanı beynəlxalq/milli/yerli qaydalara uyğun olaraq təhlükəli tullantı kimi atın.

## Piktoqram

